# Yoluxmanın artmasının bir səbəbi də düzgün olmayan ünsiyyət formasıdır

***“Virus infeksiyalarının yaranma tarixi üzvi həyatın yaranma tarixi qədər qədimdir. Məsələn, ən cavan viral infeksiyalardan biri olan qripin yaşı 12 min ildir. Digər viral infeksiyaların tarixi isə qripdən də çox-çox qədimdir. Bu infeksiyalar müəyyən dövrlərdə insanlığa məhrumiyyətlər yaşatsa da, heç biri, “həyat enerjisini” söndürə bilməyib. Ona görə də yeni növ koronavirus (COVID-19) infeksiyasının insanlığa fəlakət gətirəcəyi qorxusu yoxdur. Çünki digərləri kimi, ona qarşı da peyvənd hazırlanıb və tətbiq olunur”. Bu fikirləri Azərbaycan Tibb Universitetinin farmakologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Musa Qəniyev ikinci ildir ki, bəşəriyyəti təhdid edən, insanları vahimədə saxlayan COVID – 19 – un iyulun son günlərindən başlayaraq, avqustda da davam edən yoluxma sayındakı artım dinamikasından danışarkən deyib.***



Professor Musa Quliyev bildirib ki, istənilən infeksiyanın “potensial fəallığı” iki əsas parametrlə – yoluxma sürəti (Ro indeksi) və letallıq (öldürücülük) əmsalı ilə dəyərləndirilir: “COVID – 19 - un bir virusunun yoluxdurduğu xəstə sayı göstəricisi, yəni Ro indeksi 2 – 2,2-dir. Koronavirus bu göstəriciyə görə qızılca (11–18), su çiçəyi (7 – 12), parotit (11–14), hətta sələfi Mers – CoV- dan (3) belə nəzərəçarpacaq dərəcədə geri qalır. COVID –19 - da letallıq əmsalı, yəni 100 nəfərə düşən ölüm halı 3,6 faizdir. Bu göstəriciyə görə ebola (50 faiz), quş qripi (39,3 faiz), Mers – CoV (35 faiz), donuz qripi (17,4 faiz) və qohumu Sars – CoV (9,6 faiz) infeksiyalarından bir neçə dəfə zəifdir”.

Professor çox vacib, hamımızı düşündürən, millətimizə xas bir məsələ barədə də fikir söyləyib. Bildirib ki, yoluxmanın bir səbəbi də düzgün olmayan (öpüşərək görüşmək) ünsiyyət formasıdır. Bu ünsiyyət formasının geniş yayılması 1990 - cı ildən bugünə qədər davam edir. Stereotip təkrarlanan halın hüceyrə yaddaşına qeyri - iradi təkrarlanan hal kimi yazılmasının zaman müddəti, postnatal inkişafda ikinci uşaqlıq yaş dövrünün sonuna qədər davam etdiyindən, bu müddət 11 – 12 il olmalıdır. Biz hazırda bu arzuolunmaz və istəkxarici icra olunan vərdişin əsirinə çevrilmişik. Hazırkı artımda “Delta” ştammı ilə yanaşı, abnormal ünsiyyət də böyük rol oynayır. Bu ünsiyyət forması ölkənin bütün ailələrində var. COVID – 19 haqqında fikir bildirən hər kəs ölkədəki əsl həqiqət və reallığı görməlidir. Yoluxmanın səbəb faktorunu bilməli və xalqı bu istiqamətdə maarifləndirmək lazımdır ki, vətəndaşlar koronavirusdan qorunmanın öz əllərində olduğunu bilib, düşkünlük və ruhi sarsıntı keçirməsinlər”.

M. Qəniyev sosial şəbəkələrdə ölüm səbəblərinin əsasən koronavirusla əlaqələndirilməsini yolverilməz adlandırıb: “Ölüm səbəbi yalnız patoloq – anatomun təsdiqindən sonra rəsmi mənbəyə istinadən verilməlidir. Naməlum ölüm səbəbləri COVID – 19-un statistikasına salınmamalıdır. Hər kəs bilməlidir ki, ölüm canlı aləm üçün haqdır və qaçılmazdır. Ona görə də canlı toxuma postnatal inkişaf dövründə mutasiya edərək subhüceyrəvi genom vahidini itirərək, irsiyyəti yaşatmaq üçün canlı həyata “əlvida” deyir. Dünyada doğum – ölüm nisbəti son on ildə 2,2 - nin 1- ə nisbətindən çox olmayıb, bu gün isə 2,3- ün 1- ə nisbətindən də artıqdır. Yəni, doğum azalmayıb, hətta məlum nisbətdə artıb.

Professor bildirib ki, hər koronavirus əlaməti virusa yoluxmaq mənasını vermir: “Bu günlərdə Ümumdünya Səhiyyə Təşkilatının təqdim etdiyi statistikaya əsasən, COVID – 19 həyatımıza qədəm qoyandan sonra, qrip dünyada 98 faiz azalıb. İddia olunur ki, koronavirusun yoluxdurduğu hüceyrəyə digər virusların girməsinin qarşısı alındığından, qrip və digər viral infeksiyalar azalıb. Bu, tamamilə səhv və yanlış fikirdir. Bəli, əksər viruslar konkurent antaqonizm prinsipi ilə yoluxdurduğu hüceyrəyə digər virusların həm intra, həm də parasellülyar yolla daxil olmasının qarşısını alır. Koronavirusa yoluxma zamanı isə vəziyyət tamamilə başqa cür olur. COVID – 19 hüceyrəyə reseptor mexanizmlərlə daxil olduğuna görə, intra və parasellülyar qapılar açıq qalır. Digər tərəfdən, hüceyrənin immun müqaviməti zəiflədiyinə görə hüceyrələrə daxil olan virusların hüceyrədaxili axın sürəti daha da intensivləşir. Yəni, COVID – 19 digər virusların hüceyrələrə daxil olmasına nəinki mane olmur, hətta bu prosesi daha da sürətləndirir. Deməli, söylənilənlər tamamilə əsassızdır. Diaqnoz tam təsdiqlənmədiyi halda, hər temperatur yüksəlməsi, boğaz və ya qarın ağrısı koronavirus əlaməti deyil”.

Onun sözlərinə görə, viral infeksiyalardan qorunmanın ən etibarlı yolu peyvənd olunmaqdır: “Peyvəndləmə prosesinin əsasında vətəndaşların düzgün maarifləndirilməsi, peyvəndlərin alınması, daşınması, saxlanılması və tibb personalının ondan istifadəsi zamanı bütün mövcud təlimatlara dəqiq şəkildə əməl olunmasıdır. Əks halda, arzuolunmaz, hətta faciəli nəticələrə, eləcə də cəmiyyətdə qeyri - düzgün yanaşma tərzinin formalaşmasına səbəb ola bilər. Vətəndaşları bir daha əmin edirəm ki, COVID – 19 öldürmür. Öldürən profilaktik və şəxsi gigiyenik tədbirlərə əməl olunmaması, ruhi sarsıntı, stres, gərginlik, koronavirusa görə yaranan endogen ölüm qorxusudur. Peyvənd olunub, adi gigiyenik qaydalara riayət edib, normal həyatımıza davam etsək, bu bəladan birdəfəlik qurtula bilərik”.

İnfeksionistlər bildirirlər ki, COVID–19 yeni infeksiyadır və ona qarşı təsirli dərman vasitəsi icad olunmayıb. Ümumiyyətlə, virus infeksiyalarına qarşı dərman vasitələrinin ərsəyə gətirilməsi üçün uzun illər lazımdır. Belə bir şəraitdə infeksiya ilə mübarizənin ən təsirli metodu məhz peyvəndlənmədir. Çünki vaksin olunmuş insanlarda həmin infeksiyaya qarşı həssaslıq müəyyən qədər itir. Əgər peyvənd olunanlar həmin virusla təmasda olarlarsa, onlar yoluxmurlar, yoluxsalar belə, bu xəstəlik simptomsuz və ya yüngül keçir. Statistikaya görə peyvənd olunanlar arasında ağır halların və ölümlərin sayı çox azdır. Buna görə də vaksinasiya ən effektiv yol kimi vacibdir. Amma epidemioloji zəncirin qırılması üçün əhalinin müəyyən hissəsinin tam vaksinləşməsi lazımdır. Bu rəqəm Nazirlər Kabinetinin qəbul etdiyi Vaksinasiya Strategiyasında öz əksini tapıb. Mövcud ştammları da nəzərə alsaq, bu, əhalinin təxminən 70 – 80 faizini əhatə etməli, xəstəliyə qarşı immunitet formalaşmalıdır. İmmunitetin formalaşması isə iki cür – təbii və süni yolla olur. Təbii yolla, yəni insan xəstəlik keçirib immunlaşır, ya da süni – peyvənd yolu ilə. Süni yol daha etibarlı üsuldur. Çünki xəstəlik keçirmədən həmin infeksiyaya qarşı dözümlülük əldə etmək mümkün olur.

Avqustun 25- i tarixinə Azərbaycanda COVID – 19 əleyhinə 6 milyon 335 min 305 milyon doza vaksin vurulub. 2 milyon 504 min 655 vətəndaş vaksinin hər iki dozasını qəbul edib. Həmin şəxslər artıq qorunmuş hesab olunurlar. Peyvəndlər 100 faiz qorumasa da, vaksinin hər iki dozasını qəbul edən şəxsdə müəyyən qoruyuculuq qabiliyyəti, immunitet formalaşır ki, o, yoluxsa belə, onda xoşagəlməz nəticələrin yaranmayacağı təsdiqlənib.

Sübutlu tərəfi tam araşdırılmamasına baxmayaraq, hazırda bir sıra ölkələr – Türkiyə, Rusiya, İsrail və digər Avropa ölkələri üçüncü – buster (qüvvətləndirici) dozanı tətbiq etməyə hazırlaşırlar. Həssas qrupun yoluxma və ya xəstələnmə zamanı bu xəstəliyi daha ağır keçirmək ehtimalı çox olduğundan, o cümlədən həmin şəxslər arasında hospitalizasiya və ölüm hallarının sayını azaltmaq üçün onlara üçüncü doza tövsiyə olunur. Bu, ölkəmizdə Səhiyyə Nazirliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və TƏBİB-in birgə bəyanatında öz əksini tapıb. İkinci doza vurulduqdan 6 ay sonra həmin şəxslər üçüncü dozanı qəbul etmək üçün müraciət edə biləcəklər. Vaksinasiyanın ilk günlərində peyvənd olunmuş şəxslər bu ayın 15-dən etibarən üçüncü doza üçün müraciət edə bilərlər.

***Zərifə BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***